# Sülhün şərtlərini Bakı müəyyən edir

## Ermənistan regionda yaranan yeni reallıqla barışmalıdır

İkinci Qarabağ müharibəsində qalib tərəf olmasına baxmayaraq, sülh və əmin-amanlığın yaranmasını üstün tutan Azərbaycan məğlub Ermənistana sülh əlini uzadıb. Ötən üç il müddətində də ölkəmiz Ermənistanla münasibətlərin normallaşması, yekun sülh sazişinin imzalanması üçün praktiki addımlar atıb və sülh naminə müxtəlif formatlı görüşlərdə iştirak edib.



Azərbaycanın qələbəsi Cənubi Qafqazda yeni reallığın yaranmasına gətirib çıxarıb və qalib tərəf kimi də ölkəmizin şərtlərinin qəbul edilməsi Ermənistan üçün, əslində, ən uyğun variantdır. Müharibədən sonra yekun sülh sənədi üçün şərtləri təqdim edən Azərbaycanın prinsipləri beynəlxalq hüquq və normalara əsaslanır. Bununla belə hər dəfə bir havadarının arxasında gizlənən Ermənistan hansısa bir yolla sülh müqaviləsi bağlamaqdan yayınır.

Son olaraq sülh danışıqları üçün növbəti görüşün Qranadada keçirilməsi gözlənilsə də, bu, baş tutmadı. Çünki bu görüş sülh danışıqları masasından çox, Azərbaycana qarşı əks mövqedə birləşən "dördlüy"ün bir araya gəlməsi idi. Azərbaycan Türkiyənin də görüşdə iştirakını istəsə də, xüsusən Fransanın "səy"ləri ilə qarşı tərəf buna etiraz etdi. Elə bu səbəbdən də Prezident İlham Əliyev bu qeyri-rəsmi görüşə qatılmadı.

Məsələ ilə bağlı Milli Məclisin deputatı Ceyhun Məmmədov qəzetimizə açıqlamasında deyib ki, Azərbaycanın Qranada görüşündən imtina etməsi tamamilə haqlıdır. Bununla bağlı Prezident İlham Əliyevin mövqeyi var: "Bu görüşdə təəssüf ki, Fransa hər zaman olduğu kimi, yenə təxribatlarla çıxış etdi və bu prosesdə Türkiyənin iştirakına mane olmağa çalışdı. Əslində, uzun müddətdir, yəni 2003-cü ildən bu günə kimi Türkiyə hər zaman bu proseslərdə iştirak edib. Beləliklə, Türkiyənin bu danışıqlardan çıxarılması, uzaqlaşdırılması cəhdi Azərbaycan tərəfindən birmənalı olaraq rədd edilib".

C.Məmmədov hesab edir ki, bu, doğru addımdır. Eyni zamanda Prezident İlham Əliyevin əvvəllər də dediyi kimi, Azərbaycanın iştirakı olmadan, hansısa bir sənəd imzalana bilməz .

Deputat vurğulayıb ki, Fransa yenə Ermənistanı silahlandırır ki, bu da birmənalı olaraq qəbul edilən məsələ deyil. Azərbaycan bununla bağlı dəfələrlə öz sözünü deyib və müxtəlif platformalarda mövqeyini qarşı tərəflərin diqqətinə çatdırıb. Həmçinin mövcud olan təxribat xarakterli hərəkətlərə qarşı da Azərbaycan öz kəskin reaksiyasını bildirib və bildirəcək. Bu kimi məsələlərdə Azərbaycanın mövqeyi mütləq nəzərə alınmalıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 10 oktyabr.- S.9.